# Kikboksinq üzrə XXVII Azərbaycan Çempionatının və Birinciliyinin təntənəli açılış mərasimi olub

22 sentyabr tarixində Bakı İdman Sarayında Kikboksinq üzrə XXVII Azərbaycan Çempionatının və Birinciliyinin təntənəli açılış mərasimi keçirilib.



Milli Məclisin Gənclər və idman komitəsinin deputatları, Gənclər və İdman Nazirliyinin məsul əməkdaşları, şəhid ailələri, qazilər, idman ictimaiyyətinin iştirakı ilə keçirilən açılış mərasimi Dövlət himninin səsləndirilməsi ilə başlanıb.

Sonra Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə açılış nitqi ilə çıxış edən Milli Məclis Sədrinin müavini, Kikboksinq Federasiyasının fəxri prezidenti Adil Əliyev bugünkü qüdrətli Azərbaycanın məhz Ulu Öndər Heydər Əliyevin gərgin əməyinin bəhrəsi olduğunu, Ümummilli Liderin siyasəti xəttinin bütün sahələrdə layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirildiyini qeyd edib.

Ölkəmizdə ordu quruculuğuna, bədən tərbiyəsinə ayrılan yüksək diqqət və qayğı nəticəsində bu gün rəşadətli ordumuzun Prezident, Müzəffər Ali Baş Komandanın rəhbərliyilə bizlərə qazandırmış olduğu tarixi qələbədən bəhs edən Adil Əliyev Rusiya Federasiyası sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərimizdə qanunsuz erməni silahlı dəstələrinə qarşı uğurla həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri ilə əlaqədar məlumat vermiş və 24 saatdan az vaxtda separatçıların təslim olmaq məcburiyyətində qaldıqlarını vurğulamışdır. O bildirmişdir ki, məhz bu gün qazanılmış uğurlara görə dövlət başçısına, rəşadətli ordumuza, xüsusən də bu yolda canını qurban vermiş şəhidlərimizə borcluyuq. Qələbəmizin memarları olan qəhrəmanlar Vətən yolunda canlarını fəda edərək bizə tarixi qələbə bəxş ediblər.

Bu gün Azərbaycan Kikboksinq Federasiyasının 30 illiyinin təntənəli qeyd olunduğunu bildirən vitse-spiker federasiyanın keçdiyi tarixi yoldan danışıb.

Daha sonra çıxış edən Azərbaycan Kikboksinq Federasiyasının prezidenti Orxan Əliyev federasiyanın qazandığı uğurlardan, ölkəmizdə idman siyasətinə ayrılan yüksək diqqət və qayğıdan bəhs edib. Habelə yarışlar barəsində məlumat verərək göstərilmiş yüksək nəticələri diqqətə çatdırıb.

Tədbirdə Gənclər və İdman Nazirliyinin İdman şöbəsinin müdiri Elnur Məmmədov idman siyasətinin uğurlarından danışaraq keçirilən yarışları yüksək qiymətləndirib.

Görüşdə Milli Məclisin Gənclər və idman komitəsinin üzvləri Şahin İsmayılov, Etibar Əliyev, Mahir Abbaszadə, Könül Nurullayeva, Cavid Osmanov, Vüqar İskəndərov və Müşfiq Cəfərov iştirak ediblər.

Daha sonra yarışlara start verilib və idmançılar müxtəlif çəki dərəcələrində öz güclərini göstəriblər.

***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 23 sentyabr.- S.3.